# XALQINA ŞÖHRƏT GƏTİRƏN İNSAN

Respublikamızda keçirilen bayramların sırasında en ali peşelerden olan müellimlere hesr edilmiş tarixi günün de qeyd olunması teqdire layiqdir. Müellim günü edebi-ictimai fikir tarixinde maarif ve medeniyyet xadimi, şair, nasir, dramaturq, edebiyyatşünas, tercümeçi kimi tanınmış qüdretli senetkarlarımızdan olan Abdulla Şaiqin menzil muzeyinde de yüksek seviyyede qeyd olundu. Tesadüfi deyil ki, Azerbaycanda milli pedaqogika elminin esasını qoyanlardan biri kimi meşhur olan A.Şaiqin menzil muzeyinin otaqlarından birinde Şaiqin bir fikri epiqraf kimi götürülmüşdür: "Men yazıçılığımdan ziyade müellimliyimle fexr edirem". Bu müqeddes ocaqda müellim gününü qeyd etmek – Şaiq dünyasını yaşamaq meclis iştirakçılarının üreyince olub, eneneye çevrilmişdir.

Tedbir Azerbaycan Respublikasının Dövlet himni ile başlandı. Giriş sözü ile çıxış eden muzeyin baş elmi işçisi, senetşünaslıq namizedi Minaxanım Əsedova müellimlik senetinin müqeddesliyinden, A.Şaiqin pedaqoji fealiyyetinden geniş söhbet açdı. Sonra metodmerkezin direktor müavini Seide Eyvazova, Azerbaycan Dövlet Medeniyyet ve İncesenet Universitetinin müellimi Gülövşe Memmedova, telebelerden Günel Nağdeliyeva, Sona Hesenova, Nesimi Qedirov, Ferahile Babayeva müellimlik senetinin şerefli, hem de mesuliyyetli bir peşe olduğunu vurğulayaraq şeirler söylediler. Bineqedi rayonu Bileceri qesebesindeki 297 saylı orta mektebin 4-cü sinif şagirdi Əyyub Əleskerovun söylediyi şer iştirakçılar terefinden reğbetle qarşılandı. Kamançada Toğrul Əsedullayev, tarda Valeh Allahverdiyevin müşayieti ile genc müğenni Kamran Ferzullayevin musiqi töhfesi meclise xüsusi teravet, rengarenglik verdi.

Tedbirin sonunda muzeyin direktoru, akademik Kamal Talıbzade müellim günü münasibetile hamını ürekden tebrik ederek en semimi arzularını bildirdi. A.Şaiqin pedaqoji fealiyyetinden danışaraq qeyd etdi ki, o, 1907-ci ilden başlayaraq bir-birinin ardınca müxtelif dersliker neşr etdirmişdir. "Uşaq gözlüyü", "Gülzar", "Türk çelengi", "Milli qiraet kitabı", "Ədebiyyat dersleri", "Qiraet kitabı" kimi dersliklerde uşaqların yaş dövrlerine, psixoloji xüsusiyyetlerine uyğun olan maraqlı metnler, didaktik materiallar vermişdir. 1918-ci ilde cümhuriyyet dövrünün azadlıq ruhu ile çırpınan Azerbaycanda "Şaiq nümune mektebinin" esası qoyulmuşdur. Şaiq tedrisin türk dilinde aparılmasına böyük çetinlikle nail olmuşdur. O, Azerbaycanda ilk orta milli tehsilin de esasını qoymuşdur.

**Arzu HACIZADƏ**